# "Xanların şəcərəsi": Qazax əlyazması dünya irsinə daxil edilib

Qazaxıstan Mərkəzi Elmi Kitabxanasının "Nadir kitablar, əlyazmalar və milli ədəbiyyat" bölməsində saxlanılan XVIII əsrə aid nadir əlyazma "Xanların şəcərəsi" UNESCO-nun "Dünyanın yaddaşı" proqramının beynəlxalq reyestrinə daxil edilib.

AZƏRTAC Qazaxıstanın Elm və Ali Təhsil Nazirliyinə istinadla xəbər verir ki, bu sənəd qazax xalqının tarixi yaddaşına və mənəvi irsinə qiymətli sübutdur. Əlyazma ölçüsü müəyyən parametrlərə



uyğun gələn kağız üzərində yazılıb, o, eni 45 santimetr olan nazik ağ parça üzərinə yapışdırılıb, uzunluğu isə üç metrdən çoxdur. Əlyazmanın hər iki ucu taxta çubuqlara bərkidilib və xüsusi olaraq ağac materialından hazırlanıb. Bu qatlama forması xüsusilə mühüm sənədlərin və əlyazmaların saxlanması üçün rahatlıq təmin edirdi. Qiymətli relikt 1964-cü ildə kitabxananın kolleksiyasına daxil olub.

"Xanların şəcərəsi" tarix və mədəniyyətin davamlılıq ənənəsinin əks etdirən əvəzsiz irs nümunəsidir.

Azərbaycan.- 2025.- 19 aprel (№77).- S.12.